# ÜSTÜN OLAN İNSANLIQ

## *Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında*

*(Əvvəli ötən saylarımızda)*

Məlahət Soltanqızı həyatı təkcə kitablardan öyrənməyib. Onun yaradıcılığından da hiss olunur ki, həyatın kələf kimi dolaşmış, labirintə çevrilmiş yollarını öz zəhməti, bacarığı sayəsində keçib. Bu yolda acılar yaşasa da, kasıbçılıq, çətinlik görsə də, mətanətli olub, dəyanətli olub. Əvəzində kitablardan öyrəndiyi ilə birgə həyatda gördüklərini də dərin müşahidələrlə öz yaddaşına yığıb. Rastlaşdığı, tanıdığı adamların həyat yollarını öyrəndikcə onların necə ağrılardan-acılardan keçdiyini də görüb. Başqa sözlə, ona məlum olub ki, həyat kimsəyə güzəşt eləmir. Dünyaya maddi rahatlıq içində gələnlərdən savayı, demək olar ki, əksər insanların taleyi bir-birinə bənzəyir.

Məlahət düşüncəsində xüsusi bir məkan yaratmış obrazları həyatda görüb, tanıyıb. Onların yaşadığı sarsıntıları öz varlığından keçirib. Kədərlərini insani məhrəmliklə öz duyğularına çevirib. Eyni zamanda həyatın acılarından keçərək sevincli günlərə çatmış olan insanların da fərəhlərini öz fərəhi bilib. Yəqin ki, Məlahət Soltanqızının obrazlarının canlı alınmasında, real həyat cizgiləri ilə təqdim olunmasında bu müşahidələrin təsiri az olmayıb.

Həyatda Şahnabatlar tək deyil. Həyatın acı girdablara çəkdiyi çarəsiz qızların acınacaqlı taleyi bir qələm əhli kimi, söz-sənət adamı kimi Məlahət Soltanqızını rahat buraxa bilməzdi.

Şahnabatın faciəsi nədir? Görmədiyi, tanımadığı mühitə düşür. O, şəhər aləminə hiylədən, kələkdən, ikiüzlülükdən kənar, səmimi bir mühitdən gəlib. Əslinə qalsa, o, ruhən çox sağlam bir qızdır. Hədsiz dərəcədə həyat sevgisi var. Həm də əslinə, kökünə bağlıdır. Yurdundan-yuvasından da məcburiyyət qarşısında ayrı düşüb. Maddi çətinliklər içərisində boğulan ailəsinə kömək olmaq, öz zəhməti ilə qazanc gətirərək atasını müalicə etdirmək istəyi idi onu şəhərə gətirən. Bəs şəhərdə nə gördü? Əlbəttə, şəhər mühiti də ona tamam yad deyil. Bir çox hallarda dili, adət-ənənəsi doğma olan insanlar ona istəyinə yetəcəyi ümidi verir. Şəhərdə ilk tanış olduğu mağaza sahibinin insani keyfiyyətləri onun həyatı boyu yadından çıxmır. O, başa düşür ki, hamı yalnız öz mənfəətini güdmür, dünyada elə insanlar var ki, kiməsə əl tutmağı, köməklik göstərməyi özünə borc bilir. Biz mağaza sahibinin yanında keçən günlərini Şahnabatın həyatının ən yaxşı çağlarından biri kimi görürük. Ancaq Tanrı, əgər belə demək mümkünsə, həyat kədəri, qəmi əbədi verməmədiyi kimi, sevincləri də əbədi bəxş etmir insanlara. Mağaza sahibinin qəfil ölümü Şahnabatı çıxılmazlıq girdabına atır. Mağazaya yeni sahiblik edənləri isə Şahnabatın taleyi maraqlandırmır. O, yenidən işsiz qalır. Amma yenə yaxşı adamların münasibəti onun həyata inamını qoruyur.

M.Soltanqızı öz əsərində maraqlı insanlar qalereyası yaradır. Şahnabatın kirayə qaldığı evin sahibi Bəsirə nənənin real cizgilərlə verilmiş obrazı bizim üçün insanlığın hər yerdə ölmədiyinə ən yaxşı nümunədir. Bəsirə tək yaşayır. Övladları ondan kənarda olurlar. Amma nəvələri unutmur, yanına gəlir, ona qayğı göstərirlər. Bəsirə özü də Şahnabatı tək qoymur, ona mehribanlıq və nənəlik münasibəti göstərir. Bəsirə ilə bağlı epizodların poemada təqdimi göstərir ki, M.Soltanqızı şəhərin işıqlı tərəflərini də qədərincə görə bilir.

Şahnabat işsizdir. Səhərdən axşamacan arayıb-axtarır, bu çarəsizlikdən çıxmaq istəyir. Əlbəttə, o, hiss edir ki, get-gedə labirintlər daha artıq dolaşır.

Şahnabatın kənddəki qonşuları ilə bağlı düşüncələri, müşahidələri də onun həyata inamını artırır. Bütün bunları M.Soltanqızı bir üzü sevincli olsa da, bir üzü kədərli olan həyat lövhələri kimi verir:

Şahnabat çarəsizdi...
Bütün günü iş aradı.
Yorulub taqətdən düşənə qədər
Evinə qayıtdı gün bitər-bitməz.
Kirayə qaldığı evin sahibi
Bir qoca nənəydi, adı Bəsirə
Köhnə çarpayıda keçərdi günü,
İş-gücə əlini heç bulamazdı.
Nəvəsi baş çəkirdi
Gündə bir yol yanına
Evdə hər şey yerində
Nəvə salmış sahmana.
Şahnabat qocanın halını sorub,
Otağına çəkildi, yorulmuş yaman.
Düşüncələr yenə də onu qoynuna almış,
Bu aralar könlündə baş qaldıran duyğular,
Onu hardan-haraya qanad çalıb aparmış
Qonşulardan mehriban münasibət görmüşdü.
İnsanlığı hər zaman onlardan öyrənmişdi.
Atasının dar gündə köməyinə çatdılar
Qonşuluq necə olur, o günlər anlatdılar.
Hər əziz yeməkdən pay gətirdilər,
Xəstəni əziz tutub halını soruşdular
Yastığının altına hərdən xərclik qoydular.
Ana təsəlli tapdı yaxşılığı görəndə
O da borclu qalmadı, bacardığın elədi.
Corab hördü, papaq hördü
Qonşuların hər birinə
Kənddə həyat başqadı...
İnsanlar mehribandı...
Qonşular bir-birin əziz tuturlar,
Qonaq-qaralıdı kənddə ocaqlar.
Sevinci, kədəri birgə yaşarlar
Kənddə bişən çörəyin ətri-tamı başqadı.

Şahnabatın iztirablı düşüncələri gənc qızın yaşadığı həyatın görünən və görünməyən tərəflərini əhatə edir. Doğrudur, o, atasının xəstəlikdən qurtulması üçün çıxış yolu tapa bilməsə də, kənddəki insanlar onun atasını-anasını ağır günlərdə tək qoymurlar.

Səmimiyyət mühitində yaxşılıqlara əvəz gözlənilmir. Onun atasının yanına gələnlər mümkün qədər köməklik göstərirlər. Ailənin vəziyyətinin yaxşılaşması üçün imkanlarını əsirgəmirlər. Burada M.Soltanqızının özünün düşüncələri də dəqiq həyat müşahidələridir. O, kənddəki insanların kədəri bölməklərini, sevincləri birgə yaşamaqlarını hiss olunur ki, məmnunluqla tərənnüm edir. Sözün həqiqi mənasında bir-birinə səmimi yanaşan insanların həyatı çox mənalıdır. Elə bu səbəbdən də Məlahət Soltanqızı bu insanları yüksək hisslərlə təqdir edir. Hətta Şahnbatın anası haqqında da məlumatlarda səmimi bir insan taleyini göstərməyə çalışır. Şahnabatın anası kənddə onlara yaxşılıq etmiş insanlar üçün borclu qalmamağa çalışır. Birinə corab hörür, digərinə papaq tikir, bir sözlə, əlindən nə gəlirsə, əsirgəmir. Bütün bunlara baxmayaraq, həyatın acılıqları davam etməkdədir. Atanı xəstəlikdən xilas etmək mümkün olmur. O, ömrünü yeganə qızı Şahnabata, həyat yoldaşına bağışlayaraq dünyadan köçür.

Bu məqamı da Məlahət Soltanqızı çox kədərli notlarla misralara gətirir:

Yarımca il ötmədi, itirdi atasını
Ölümün əllərindən almaq olmaz insanı
İşin-gücün əlindən bir zamanı olmadı
Sonuncu il doyunca görmədi atasını
Bu ölümlə barışmaq yaman arına gəldi
Kasıbçılıq üzündən çəkdikləri nə idi?..

Biz yazının əvvəlində də qeyd etdik ki, insanların mənəvi durumlarının, ruhən sağlam yaşamalarının, firavan ömür-gün sürmələrinin əsasını maddi təminatla çox bağlıdır. Əslində, Şahnabatın tale yolunu labirintə salan amillərin ən üstünü elə ailənin yaşadığı kasıbçılıqdır. Əgər Şahnabatgilin dolanışığı olsaydı, o heç doğmalardan ayrılırb yadların arasına düşməzdi. Şahnabat kəndə qayıdır. Hələ ki, atası ilə bağlı kədərdən tam xilas olmayıb. Doğrudur, Şahnabat kəndə qayıdıb, amma özü ilə birgə çox müşkül qayğılar da gətirib. Əsərdə bütün təfərrüatı ilə verilməsə də, şəhərdə ruhun oxşayan bir gənclə də yaxın olmuşdu. Onun ilk baxışdan çox səmimi təsir bağışlayan şirin vədlərinə də aldanmışdı.

İnsan belədir. Şirin vədlər onu aldada bilir. Çox təəssüf ki, Şahnabatın inandığı, könül verdiyi həmin gənc şəhərli oğlan Şahnabatı çətin duruma salaraq aradan çıxır. İndi artıq Şahnabat öz taleyi ilə baş-başa qalıb. O, düşdüyü çıxılmazlıq durumu haqqında nə anasına, nə də digər ona hörmətli yanaşa biləcək bir şəxsə məlumat vermir. Beləliklə, o öz dərdini öz içərisində çəkir.

Belə kədərli məqamlarda atasını yada salır. Əgər atası sağ olsaydı, bəlkə də bütün mənəvi çətinliklərə baxmayaraq, öz dərdini atası ilə bölüşər, onun mənəvi dayağından yararlanar, artıq bir dəfə büdrəmiş olsa da, lap uçurumun kənarında olsa belə, atası onu geri qaytarardı.

Belə çətin zamanlarda o, atası ilə bağlı xatirələrini yaddaşında kədərli bir təskinliyə çevirir:

Şahnabat qayıtmışdı ata yurduna
Atasının dəfnindən artıq həftələr ötmüş
Köhnə xatirələr, ah keçən günlər...
Bu evin nə gözəl günləri vardı
Hər gün atasının işdən gəlişi
Bu evdə, ocaq asta yerişi
Anasının qəhqəhəli gülüşü
Ata evinə gəlincə elədiyi biş-düşü
Bir süfrə arxasında nahara oturmalar
Atasının ovcuna doldurduğu xurmalar
"Yaxşı ye, tez böyü ağıllı qızım
Ananın qolundan, qanadından tut"
Tez-tez bu sözləri söylərdi ata
-Nədən belə deyirdin, ay mənim qərib atam

M.Soltanqızı Şahnabatın yaşadığı kədər qarışıq bu şirin xatirələri onun həyatının yavanlığına çevirir. Beləliklə, M.Soltanqızı Şahnabatın acılıqlarla dolu həyatını sanki onunla birgə yaşayır. Onun iztirablarını, çəkdiyi dözülməz dərəcədə ağır, kədərli dərdi istəsə də, yumşalda bilmir.

Beləliklə, həyatın son dərəcə boz üzü ilə qarşılaşmış olan Şahnabat vurnuxur. Onun həyatına xoşbəxtlik gətirəcək tale yolunun birdən-birə qaranlığa bürünməsi gənc qız üçün çıxılmazlıq girdabıdır.

Dünya ədəbiyyatında da, elə Azərbaycan ədəbiyyatında da Şahnabat kimi qızların taleyi ilə bağlı əsərlər çoxdur. Düzdür, hadisələr, faciələr, kədərlə bir-birinə bənzəyə bilər. Hətta sevinclərdə də oxşarlıqlar ola bilər. Bütün hallarda yazıçılar, sənət adamları həyatdan gələn Şahnabatları öz dərdlərinə uyğun, kədərlərinə müvafiq şəkildə təsvir etməyə çalışır. Sanki insanlara xatırladırlar ki, mühitin yad və ya doğma olmasından asılı olmayaraq qarşıya çıxan bütün gözlənilməzliklərdə hər kəs ehtiyatlı olmalıdır.

M.Soltanqızının "Könül yarası", "Qadın", "Dünya", "Həyat, insan, zaman", "Yoxsulluq" kimi əsərlərində qoyduğu problemlərin davamını sanki bu əsərdə də görürük. Məlahət Soltanqızının ayrı-ayrı poemalar həsr etdiyi obrazların taleyində də bu və ya digər dərəcədə oxşarlıq, mənəvi qohumluq əlaqələri var.

Yazıçı öz qəhrəmanını, demək olar ki, həmişə öz mühitində təqdim edir. Nə vaxt ki, qəhrəman mühitindən ayrılır, nəticəsi bilinməyən gözlənilməzliklər də onu izləyir. Şahnabat qəhrəmanlarını yetirən mühiti reallıqları ilə göstərir. Çətinlikləri də, insanların düşdükləri vəziyyətə uyğun münasibətlərini də kifayət qədər real cizgilərlə verməyə çalışır. Ona görə də biz ayrı-ayrılıqda onun qəhrəmanlarının hər birini, demək olar ki, tanıya bilirik. Onlara doğma münasibət yaranır düşüncəmizdə. Biz çox istərdik ki, müəllif bu zəngin həyat materialları əsasında həyatı geniş lövhələrlə əks etdirən nəsr əsəri də yaradaydı.

Hələlik biz Şahnabatın tale yolunu izləməkdəyik. Doğrudur, həyatı qırılmış atası dünyanı tərk edib. Anası Şahnabata heç bir yardım göstərmək imkanında deyil. Belə bir vəziyyətdə onu atıb aradan çıxmış, xəyanət yolu tutmuş o gənc oğlan da gözə görünmür. Amma Şahnabatı nə yazıçı tək buraxmır, nə də Şahnabata doğmalaşmış oxucular.

Hər halda, həyat çıxılmazlıqlar qaynağı olsa da, dünya və insan bir-birindən təcrid olunmuş deyil.

*(Davamı var)*